# Şərq fəlsəfəsinin poeziyadakı səsi

## Əfzələddin Xaqani Şirvani





**Bəzi insanlar var ki, sözünün hikməti ilə tarixdə silinməz iz qoyublar. Onlardan biri Şərq poeziyasının ən parlaq simalarından hesab edilən Əfzələddin Xaqani Şirvanidir. Xaqani Şirvanin adına yalnız klassik Azərbaycan və fars ədəbiyyatının deyil, bütün Şərq poeziyasının intellektual və fəlsəfi səhifələrində rast gəlmək mümkündür. Çünki görkəmli şair poeziyanı dərin düşüncənin və ictimai tənqidin ifadə vasitəsinə çevirənlərdən idi. Zaman Xaqaninin poetik məkanı ilə çökmüş səltənətlər, dağılmış ideyalar, doğulmamış ümidlər arasında körpü idi. O, bu körpünün üzərindən keçərək nəinki öz dövrünü, həm də gələcəyi təfəkkürün, dərdin, ilhamın və üsyanın rüzgarı ilə haraylayırdı. Xaqaninin hər misrası zamanın sərhədlərini aşırdı. O, poeziyanı fəlsəfi silaha çevirmiş, bu silahla dövrünün riyakarlığını, zülmünü və cahilliyini nişan almışdı. Xaqani üçün poeziya həqiqətin fəryadı, insanın daxildən gələn mənəvi gücünün simvolu idi.**

Dünyaşöhrətli Azərbaycan şairi, mütəfəkkir Xaqani Şirvani 1126-cı ildə Şamaxının Məlhəm kəndində anadan olmuşdu. Əsl adı İbrahim idi. Xaqani onun təxəllüsü, Şirvani mənsub olduğu yerin adından götürülmüşdü. Şair 8 yaşında atasını itirmiş, dövrünün alimi, həm də öz doğma əmisi olan Kafiəddin Ömərin himayəsi altında böyümüşdü. 25 yaşında ikən sorağı saraylara qədər getmişdi. Şairin əsərləri Şirvanşahlar sarayının məlik üş-şüərası Əbül-üla Gəncəvinin diqqətini çəkmiş və o, Əbül-ülanın dəvəti ilə saraya gəlmişdi. "Xaqani" təxəllüsünü də şairə Əbül-üla vermişdi. Xaqani sarayın məlik üş-şüərasının qızı ilə evlənmişdi. Söz azadlığının olmadığı, yaltaqlığın zərli pərdələr arxasında dolaşdığı bu mühitdə onun sərt və açıq fikirləri çoxlarını təşvişə salmışdı. Xaqani özü bu dövrü "qanadı qırılmış bir quşun dəmir qəfəsdəki fəryadı" kimi təsvir etmişdi. Onun ruhu daralmış, sözü də, cismi də azadlığa həsrət qalmışdı. Sarayın şər qüvvələrinin əməlləri onun həbsə düşməsinə səbəb olmuşdu. Dəmir barmaqlıqlar ardında olduğu dövrdə o, "Həbsiyyə" şeirlərini yazmışdı.

*İlhamım yalanla xarab olmuşdu,*
*O, civə rəngində şərab olmuşdu.*
*İndi hər sözümdə bir həqiqət var,*
*O, güzgü, məhək tək olmuşdur meyar.*

Azadlıq axtarışı və Tanrıya yaxınlaşma ehtiyacı onu böyük səyahətə - Məkkəyə, Mədinəyə, Bağdada, qədim Şərqin ruhunu yaşadan şəhərlərə doğru çəkmişdi. O, yad diyarlarda təkcə şəhərləri gəzmir, həm də öz içindəki zindandan çıxmağa, ruhunun həqiqi azadlığını tapmağa çalışırdı.

Səfər zamanı Xaqani bu müqəddəs torpaqlarda gördüyü ehtiramdan, insanların ona bəslədiyi hörmətdən heyranlıqla danışmış, səyahətinin ən dəyərli bədii bəhrəsi olaraq "Mədain xərabələri" adlı məşhur fəlsəfi qəsidəsini yazmışdı. Sasani şahlarının bir zamanlar əyilməz görünən qalalarının viran qalmış sütunlarına baxaraq şair əslində yaşadığı dövrə güzgü tuturdu. Bu, gələcək nəsillərə xəbərdarlıq idi. Şairin Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk böyük abidəsi hesab edilən "Töhfətül-İraqeyn" adlı poeması söz sənətində yeni səhifə açdı. 1157-ci ildə qələmə aldığı möhtəşəm əsər onun Məkkə və İraq səfəri zamanı yaşadığı mənəvi və fiziki təlatümlərin, xalqın həyatından aldığı təsirli müşahidələrin poetik xülasəsidir.

Xaqanin əsərləri tezliklə sərhədləri aşaraq Yaxın və Orta Şərq ölkələrinə yayılmağa başladı. "Düşmənləri tənqid", "Günəşə xitab", "Qızıla məzəmmət" adlı əsərlər Xaqaninin dərin müşahidə qabiliyyətinə malik olduğunu açıq şəkildə nümayiş etdirdi. O, saflığın, ucalığın, işığın və ruhaniliyin simvolu olan günəşi özünün dostu bilir və səmavi varlıqla insan ruhu arasında körpü qururdu. Əsərin baş qəhrəmanı məhz Xaqaninin özüdür - düşünən də, qəzəblənən də, sevinən də odur. Xaqani həm də Azərbaycan poeziyasında lirik janra yeni üslub gətirən sənətkarlardandır. Onun qəzəl və rübailərində türklüyə bağlılıq, milli ruhun ifadəsi və mədəni özünüdərk dayanırdı. Sonradan Nizaminin yaradıcılığında bu xüsusiyyət kamilləşdi, Sabirin poeziyasında isə zirvəyə çatdı. Əruz vəzninin demək olar ki, bütün bəhrlərində şeir yazan yeganə sənətkar kimi Xaqani həm texniki ustalığı, həm də bədii zənginliyi ilə seçildi.

Əsərləri tədqiq edilərkən məlum olur ki, Xaqani öz dövrünün bütün elmlərinə bələd idi. Musiqi, riyaziyyat, tarix və s. kimi sahələr onun misralarında poeziyanın canlı strukturuna çevrilmişdi. Azərbaycan alimi Məhəmmədəli Tərbiyyət yazırdı: "Xaqani öz dövründə işlənməkdə olan elmlərin çoxuna yaxşı bələd idi. O hansı elmdir ki, mən onu bilmirəm? - deyə şair özü əsərlərində sual edirdi". Ən maraqlı məqamlardan biri isə Xaqani ilə Nizami Gəncəvi arasındakı dostluq əlaqələridir. Onlar həm bədii, həm də ideoloji baxımdan bir-birini tamamlayan, eyni ağrılara, eyni haqsızlıqlara qarşı eyni mövqedən çıxış edən xiridarlar idilər. Bu iki nəhəng sənətkarı zaman məfhumu, dövrün dar qəlibləri sıxırdı. Onlar saraylardan deyil, xalqdan ilham alır, ədalətsizliyə qarşı çıxırdılar. Xaqaninin "Töhfətül-İraqeyn" və "Mədain xərabələri" əsərlərində, Nizaminin "Xəmsə"sində bu etirazların və çağırışların, inqilabi poetikanın izləri çox aydın görünür.

Xaqani şeirlərindəki metaforalar mənəvi və fəlsəfi həqiqətlərin açarı idi.

*"Kimsə söz atdı ki, Xaqani artıq*
*Yaraşmır saraya, böyük xaqana.*
*Bəli, doğru dedi, su daşımaqçün,*
*Layiq olmamışdır div Süleymana".*

Misralarda şair özünün hikmət və haqq yolunda olduğunu, saraya uyğun gəlmədiyini bildirir. Bu da onu müstəqil və üsyankar sənətkar kimi göstərir.

Xaqaninin divanında və ümumiyyətlə yaradıcılığında qəsidə janrı mühüm yer tutur. Yaxın və Orta Şərqin İntibah dövrü ədəbiyyatında qəsidə janrının ən görkəmli nümayəndəsi məhz Xaqanidir. Şairin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, "Töhfətül-İraqeyn" poeması, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Firdovsi və Nizaminin poema janrında, Hafiz və Füzulinin qəzəldə, Ömər Xəyyamın rübaidə göstərdiyi möcüzəni Xaqani qəsidə janrında göstərmişdir. Onun qəsidələri dərin və çoxcəhətli məzmun, yüksək sənətkarlıq baxımından diqqəti cəlb edir. Əgər qəsidələrdə şair müxtəlif məsələlər ətrafında geniş, rəngarəng düşüncə və fikirlər silsiləsi yaradır, qəzəllərdə daha çox insan qəlbinin ülvi, yüksək duyğularını əks etdirirsə, qitələrində ancaq bir mətləb izlənilir, bir neçə beyt əsasında həmin mətləb ifadə olunur.

Xaqaninin həyatının son illəri çox ağır keçib. Onun 20 yaşlı cavan oğlu, qızı və həyat yoldaşı bir-birinin ardınca vəfat edib. Qoca şair tamamilə tək qalıb. O, 1199-cu ildə vəfat edib və Təbriz şəhəri yaxınlığında Surxab qəbiristanlığında dəfn edilib. Şairin məzarı "Şairlər məqbərəsi" adlanan yerdədir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**